

# AZƏRBAYCAN İQTİSAD ELMİNİN PARLAQ SİMASI

*Azərbaycan iqtisad elminin inkişafında mühüm rol oynamış görkəmli alim, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun zəngin elmi fəaliyyəti, xüsusilə əmək ehtiyatlarının iqtisadi təhlili, qadın əməyinin səmərəliliyi və insan kapitalı kimi aktual və strateji mövzuları əhatə edir. Görkəmli alimin elmi irsi həm nəzəri, həm də tətbiqi baxımdan dəyərli olmaqla yanaşı, ölkənin sosial-iqtisadi siyasətinə praktik töhfələr vermişdir.*

Professor Şahbaz Muradovun şəxsiyyəti millətinə, dilinə, dininə və vətəninə sadiq, əqidəli bir ziyalı kimi dəyərləndirilməlidir. Yüksək mənəvi keyfiyyətləri, sadəliyi, səmimiyyəti, təvazökarlığı ilə həmkarlarının və yetirmələrinin dərin hörmətini, sevgisini qazanan böyük alimin həyat yolu, əqidəsi, zəhmətsevərliyi gənc nəslə örnək, gələcəyin tədqiqatçıları üçün isə ilham mənbəyidir.

O, müəllimlik missiyasını şəxsiyyət formalaşdırmaq kimi qəbul etmiş, yetirmələrinə həm elmi bilik, həm də vətənpərvərlik ruhu aşılamışdır. Onlar üçün bir müəllimdən daha çox, mənəvi ata olmuş, onların uğurlarını öz nailiyyəti kimi qiymətləndirmişdir. Elm aləmində qazandığı nüfuzla yanaşı, Şahbaz müəllim yüksək insani və milli-mənəvi dəyərlərin daşıyıcısı və təbliğatçısıdır. Alim həyatının bütün mərhələlərində bu dəyərlərə sadiq qalmış, xalqına və dövlətinə layiqincə xidmət etmişdir.

Şahbaz Muradov Azərbaycanın dilbər guşələrindən olan Laçın rayonunun Xumarta kəndində zəhmətkeş ailədə dünyaya göz açmışdır. O, 1953-1956-cı illərdə Bakı Kooperativ Texnikumunda təhsil almış, 1956-cı ildə buranı fərqlənmə diplomu ilə bitirmiş və Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur. 1959-cu ildə institut ləğv edildiyindən təhsilini Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsində davam etdirmiş, 1961-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda fəaliyyətə başlamışdır. 1961-1966-cı illərdə institutda kiçik elmi işçi, 1966-1968-ci illərdə böyük elmi işçi vəzifələrində çalışan Şahbaz Muradov 1968-ci ildən etibarən "Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin rəhbəri olmuşdur. 1991-1998-ci illərdə institutun elmi işlər üzrə direktor müavini, 1999-2008-ci illərdə isə direktor vəzifələrində çalışmışdır. 1965-ci ildə "Azərbaycan SSR kənd təsərrüfatında qadın əməyinin səmərəli istifadəsi" mövzusunda namizədlik, 1972-ci ildə isə "Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1977-ci ildə professor elmi adını almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Alimin rəhbərliyi ilə 135-dən çox iqtisad üzrə fəlsəfə və elmlər doktoru yetişmişdir. Tədqiqatlarının nəticələri 750-dən artıq elmi əsərdə, o cümlədən 35-dən çox monoqrafiya və kitabda öz əksini tapmışdır. 70-dən artıq elmi əsəri xarici ölkələrdə nəşr olunan alimin 10-dan çox elmi nəticəsi və 2 monoqrafiyası SSRİ EA Rəyasət Heyəti tərəfindən sovet elminin ən mühüm elmi nəşrləri sırasına daxil edilmişdir. Keçmiş SSRİ və Azərbaycanın məşğulluq sahəsində gender problemlərinin sosial-iqtisadi və demoqrafik aspektlərinin kompleks şəkildə araşdırılması onun adı ilə bağlıdır. Bununla yanaşı, alimin əsərləri xarici ölkələrdə, o cümlədən ABŞ, Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Baltikyanı ölkələr və Mərkəzi Asiya respublikalarında çap edilmişdir. Onların bəziləri ingilis dilində çap edilib dünyanın bir çox ölkələrinə yayılmışdır. Professor Ş.M.Muradov xarici ölkələrin görkəmli iqtisadçı, demoqraf və sosioloq alimləri ilə birlikdə yazılıb 1971-2001-ci illərdə Moskva şəhərində nəşr edilmiş 15-dən artıq fundamental tədqiqat əsərinin müəlliflərindən biridir. Bundan əlavə, Moskva şəhərində SSRİ EA tərəfindən hazırlanmış ETT-nin Kompleks Proqramının yekun sənədinin və həmin proqramın nəticələri üzrə 1979, 1983 və 1987-ci illərdə çap olunmuş 50.0 ç.v. həcmində üçcildliyin həmmüəlliflərindəndir.

Professor Ş.M.Muradovun tədqiqatlarları real həqiqətləri özündə əks etdirən konkret faktlara, geniş statistik bazaya söykənir, nəzəri dərinliyi və kifayət qədər elmi cəhətdən əsaslandırılması ilə fərqlənir. Onun tədqiqat obyektini yaxın və uzaq gələcəkdə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası və taktikasının müəyyənləşdirilməsi və proqnozlaşdırılması ilə bilavasitə bağlı olan demoqrafiya və əhali sakinliyinin inkişafı, iş qüvvəsinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadə, insan potensialı, məşğulluq, işsizlik və məşğulluq sahəsində gender problemləri təşkil edir. Alimin həmin problemlərin nəzəri-metoloji, sosial-demoqrafik və regional aspektləri ilə bağlı ümumiləşdirici xarakter daşıyan əsərləri ilə nəinki respublikamızda, bir çox hallarda isə bütünlükdə MDB məkanında iqtisad elminin zənginləşməsinə sanballı töhfələr vermişdir.

Ümummilli lider Heydər Əliyevin 28 dekabr 1998-ci il və 24 iyun 2003-cü il tarixli sərəncamlarına əsasən professor Şahbaz Muradovun rəhbərliyi və müəllifliyi ilə ilk dəfə "Azərbaycan Respublikasının demoqrafik inkişaf Konsepsiyası" (1999) və "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" (2004-2008) hazırlanmış və ölkə rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

O, bir sıra mühüm elmi əsərlərin - "Müasir mərhələdə demoqrafiya siyasəti" (1986), "Azərbaycan SSR-in əmək ehtiyatları: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər", "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər", "Azərbaycan əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007)" (2008, Azərbaycan, rus və ingilis dillərində), "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn çətin yolun sosial-iqtisadi nəticələri", "Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişikliklər, yeni meyillər, problemlər (1828-2020)" və digər monoqrafiyaların müəllifidir.

1970-1990-cı illərdə görkəmli alim SSRİ Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən "Əhali sakinliyinin sosial-iqtisadi problemləri" və "Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi problemləri" üzrə Elmi şuraların, 1985-1990-cı illərdə isə Özbəkistan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda elmlər doktorluğu üzrə Dissertasiya Şurasının üzvü olmuşdur. 2004-2014-cü illərdə AMEA nəzdində İqtisadiyyat üzrə Problem Şurasına sədrlik edən Şahbaz müəlim müxtəlif ali məktəblərdə Dissertasiya şuralarının üzvü kimi fəaliyyət göstərmişdir. Professor 50 ildən artıqdır ki, elmi yaradıcılıqla yanaşı, həm də respublikamızın bir sıra ali təhsil müəssisələrində "Siyasi iqtisad", "İqtisadi nəzəriyyə", "Demoqrafiya", "Əməyin iqtisadiyyatı və sosiologiyası" fənlərindən dərs deməklə və magistrlərə rəhbərlik etməklə ali təhsil sahəsində kadr hazırlanması işinə də öz köməyini əsirgəmir.

1995-ci ildən 1998-ci ilədək Azərbaycan Respublikası Ali Sovetinə Seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının üzvü olmuş və ümumxalq referendumu yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi və ilk demokratik parlament seçkilərinin keçirilməsində fəal iştirak etmişdir. Üç il ərzində (1995-1998-ci illər) Dövlət Televiziyasında "Konstitusiya və biz" rubrikası ilə "İnam" verilişinin aparıcısı olmaqla müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının öyrədilməsi və təbliği kimi çox vacib, dövlətçiliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün zəruri olan xeyirxah işlə məşğul olaraq əsl vətənpərvərlik nümunəsi göstərmişdir. O, 1998 və 2003-cü illərdə keçirilmiş prezident seçkilərində fəal iştirak edərək öz təşəbbüsü ilə Heydər Əliyevin və İlham Əliyevin təbliğat kampaniyalarına qoşulmuşdur.

Alim hazırda Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyətinin, UNESCO-nun Azərbaycan üzrə Bioetika Elmi Bilikləri və Texnologiyaları Komitəsinin, AMEA İctimai Elmlər Bölməsinin Elmi Şurasının, iqtisadiyyat üzrə elmlər doktorluğu Dissertasiya Şurasının və "İqtisadiyyat seriyası" jurnalının baş redaktorudur.

Əmək fəaliyyətinə görə bir sıra mükafatlara layiq görülən Şahbaz müəllim "Fədakar əməyə görə" və "Əmək veteranı" medalları, AMEA-nın Fəxri fərmanları, "Şöhrət" ordeni (2004), Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2020), "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı (2024) və "Fəxri Ağsaqqal" döş nişanı (2025) ilə təltif edilmişdir. 2015-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Professor Şahbaz Muradov elm və təhsil sahəsində, eyni zamanda milli-mənəvi dəyərlərimizin qorunmasında və gənc nəslin formalaşmasında da əvəzsiz rol oynamışdır. Onun yaratdığı elmi məktəb, yetişdirdiyi mütəxəssislər və apardığı fundamental tədqiqatlar bu gün də aktuallığını saxlayır. Elmi irsi akademik ictimaiyyət üçün, həm də dövlətin iqtisadi siyasətinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

**Akifə AĞAYAROVA,**
**AR ETN İqtisadiyyat İnstitutu "Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin aparıcı elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru.**